# Heydər Əliyev ideyaları həmişə müasirdir

*Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 29 sentyabr 2022-ci il tarixli Sərəncamı ilə ölkəmizdə 2023-cü ili "Heydər Əliyev İli" elan etməsindən 3 ilə yaxın vaxt keçsə də ümummilli liderin güclü xarizmatik şəxsiyyət, fenomenal siyasətçi, mahir dövlət xadimi olaraq Azərbaycanın formalaşmasında tarixi xidmətlərinin dönə-dönə sadalanmasına ehtiyacımızın olduğunu anbaan hiss edirik.*

Azərbaycanı böyük inkişaf yoluna çıxarmaq üçün vaxtilə Ulu Öndərin ölkəmizdən kənara təhsil almağa göndərdiyi gənclərdən biri kimi mən də bu gün bu böyük Şəxsiyyət haqqında fikirlərimi bölüşərək Ulu Öndərin xatirəsi qarşısında baş əyirəm və bildirirəm ki, dərin intellekt, yüksək mədəniyyət, planetar düşüncə, misli görünməmiş enerji və yaradıcılıq qabiliyyətinə görə dünya siyasət tarixinin ən parlaq simalarından olan bu böyük insanın azərbaycanlı olmasından şərəf və qürur duyuram.

Müsəlman Şərqində demokratik respublika anlayışı Azərbaycan Xalq Cümhuriyyətinin yaranması ilə formalaşmağa başlasa da uzun illər ərzində bu siyasi kontent unutdurulmuş, müstəqil milli dövlətçilik ənənələrinə qadağalar tətbiq edilmişdir. Bu neqativ proseslərin yalnız milli düşüncə sahibi, xalqına qəlbən bağlı Ulu Öndərin respublika rəhbərliyində təmsil olunduğu 1969-1982-ci illərdə və sonradan, 1993-cü ildən başlayaraq ikinci dəfə Azərbaycanın dövlət başçısı kimi fəaliyyəti illərində qarşısı alınmışdır.

Bu gün biz məlum sərhədlərlə qəbul olunmuş müstəqil Azərbaycan dövlətinin 10 milyondan çox olan vətəndaşlarıyıq. Planetar miqyasda bu çox kiçik rəqəmdir. Buna baxmayaraq dövlətimiz var. Elə xalqlar var ki, hələ də dövlətləri yoxdur (Məsələn, İspaniyada katalonların, Çində uyğurlar və tibetlilərin, Şri-Lankada tamillərin). Bu məsələyə başqa rakursdan da baxa bilərik. Belə ki, mövcud dövləti qorumaq, onu süqut etməyə qoymamaq qat-qat çətindir. Cəmi 1 il 11 ay mövcud olmuş Azərbaycan Xalq Cümhuriyyətinin acı taleyi hamımıza bəllidir. Hörmətli Prezidentimiz cənab İlham Əliyevin də dəfələrlə vurğuladığı kimi, "Dövlətçiliyimizin, müstəqilliyimizin mürəkkəb anlarında, ən çətin məqamlarında məhz Heydər Əliyev Azərbaycanı vəziyyətdən çıxartdı, bütün atributları ilə hüquqi, demokratik dövlət qurdu". Əlbəttə, tarixdə öz xalqının gələcək taleyini həll etmiş şəxsiyyətlər həmişə olub və yenə də olacaq. Heydər Əliyevin Azərbaycanın siyasi olimpinə 2-ci dəfə qayıdışı ilə ölkəmizi inkişaf yoluna yönəltməsi son dərəcə əhəmiyyətli bir hadisə idi.

Təmsil olunduğumuz Azərbaycan Respublikasının Əqli Mülkiyyət Agentliyinin saytında "Ziyalı sözü" rubrikasında Ulu Öndər haqqında hər gün yenilənən fikirlər arasında İdarə Heyətinin sədri professor Kamran İmanovun dediyi kimi, "Heydər Əliyev millətin ən dəyərli varidatı olan intellektin böyüklüyünü, onu təşkil edən keyfiyyətlər sırasında millətin nümayəndələrinin yaradıcılığını və yenilikçiliyini görürdü. Şəxsiyyətlərimizə böyük hörmət və ehtiramla yanaşan Ulu Öndər yaradıcılığı və yenilikçiliyi insan resursları kimi qiymətləndirir, onlara əqli nəticələrin mənbəyi kimi baxaraq yalnız fərdlərin müvəffəqiyyətləri kimi deyil, ilk növbədə milli intellekt sisteminin xəzinəsini zənginləşdirən alət kimi dəyərləndirirdi". Doğurdan da, Azərbaycanın görkəmli xadimlərinin yubileylərinin İttifaq miqyasında keçirilməsi, habelə digər tədbirlər milli ideologiyanın ictimai təfəkkürdə möhkəmlənməsində misilsiz rol oynadı.

Bir misal çəkim: 1986-cı ildə Moskvada İttifaqlar Evinin Sütunlu Salonunda Səməd Vurğunun 80 illiyi qeyd olundu. Mən o vaxt MDU-nun aspiranturasında təhsil alırdım. Azərbaycanın Moskvadakı Nümayəndəliyi tərəfindən tədbirə dəvət olunan bir sıra azərbaycanlı tələbə və aspirantların arasında mən də vardım. 1986-cı ildə Ulu Öndər hələ SSRİ Nazirlər Soveti sədrinin 1-ci müavini idi. Tədbirin başlamasına bir neçə dəqiqə qalmış Siyasi Büronun demək olar ki, əksər üzvləri - Liqaçov, Ponomaryov, Şevardnadze, Demiçev və digərləri Heydər Əliyevlə birlikdə zala daxil oldular. Onu da qeyd edim ki, Ermənistanın ovaxtkı rəhbəri K.Dəmirçiyan da orada idi. Biz elə o zaman başa düşdük ki, tədbirin bütün digər məqsəd və vəzifələri ilə yanaşı, bu həm də yüksək qonaqların Ulu Öndərin avtoriteti ilə hesablaşmaq məcburiyyətindən irəli gəlirdi.

Bizim toplantımızda gənc nəslin nümayəndələrinin də iştirak etdiyini nəzərə alaraq Heydər Əliyevin siyasi xadim kimi əhəmiyyəti barədə bəzi fikirlərimi sizinlə bölüşmək istərdim.

Heydər Əliyev siyasətə islahatçı siyasətçi kimi gəldi və qazandığı uğurlara görə Azərbaycanın ən vacib siyasi siması oldu. Sual yarana bilər: Onu bir siyasətçi kimi bu qədər vacib edən nədir?

Məsələ burasındadır ki, XX əsrin 70-ci illərindən başlayaraq Azərbaycanda və ümumilikdə SSRİ deyilən İttifaqda ciddi siyasi, iqtisadi böhran yaşanırdı. Keçmişi təmsil edən güclü qüvvələr mövcud idi. Bu qüvvələrlə mücadilə və mübarizəyə ehtiyac var idi. Vəziyyət bir tərəfdən köhnə qüvvələrlə mübarizəni, digər tərəfdən də respublikada, ölkədə islahatlar aparmağı tələb edirdi. O illərdə respublikaya rəhbərlik edən ulu öndər neqativ hallarla mübarizəni ölkənin həyatında siyasi, iqtisadi islahatlar aparmaqla birləşdirdi və nəticədə Azərbaycanın siyasi sistemini əsaslı şəkildə yeniləşdirdi. Azərbaycanı İttifaqda ədalətli həyat sürən bir sıra respublikalardan ayıraraq aktiv bir ölkəyə çevirdi.

İkinci rəhbərliyi dövründə isə müstəqillik, inkişaf və demokratiya ilə yerli dəyərlərin sintezindən yaranan "Yeni fərqli bir Azərbaycan" adlı layihəsini həyata keçirməyə başladı. Beləliklə, biz siyasi baxışlarına və fəaliyyətinə görə Ulu Öndəri rəhbərliyinin birinci dövründə islahatçı, ikinci dövründə isə qurucu prezident kimi görürük. Fikrimcə, onun uğurlu siyasi fəaliyyətinin kökündə də elə bu faktor durur. Ən qiymətli sərvətlər deyəndə insanın ağlına ilk növbədə yerin altında olanlar, dəryaların dibinə çökənlər gəlir. Sirr deyil ki, insan həmişə yerin altındakı sərvətləri qazanmağa meyilli olub. Görünür elə bu səbəbdən də belə bir aforizm meydana gəlib: "Sərvəti itirməyincə, onun qədrini bilməzlər".

Ancaq ölkə Prezidenti cənab İlham Əliyevin "Bizim üçün indi insan kapitalı yeraltı və yerüstü sərvətlərdən daha vacibdir" fikrini əsas götürərək deyə bilərik ki, Azərbaycanın belə əvəzsiz insan kapitalı arasında Ulu Öndərin ölçüyəgəlməz, ucadan uca, uludan ulu bir yeri vardır.

**Mübariz MƏMMƏDLİ,**
**Respublika Elmi-Texniki Kitabxanasının direktoru.**